



# Böyük tarixi əhəmiyyətə malik bəyannamə

***Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri ilə Azərbaycanla bu ölkə arasında münasibətlər yeni mərhələyə daxil oldu. Dövlətimizin başçısı və Vladimir Putinin birgə imzaladıqları “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə” ikitərəfli münasibətlərə yeni siyasi məzmun gətirdi.***

Xatırladaq ki, son illər ərzində Azərbaycan-Rusiya əlaqələri möhkəm dostluğa, mehriban qonşuluğa, etibarlı tərəfdaşlığa və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan dinamik inkişaf yolu keçib. Başqa sözlə, Azərbaycan və Rusiya dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq müstəvisində uğurla inkişaf edib. Şübhəsiz ki, hər iki ölkə rəhbərinin müntəzəm görüşləri dövlətlərarası münasibətlərə yüksək dinamizm verib, siyasi, sosial-iqtisadi əməkdaşlığın inkişafı üçün əlverişli zəmin yaradıb.

Prezident İlham Əliyev ikitərəfli münasibətlərin inkişafı barədə deyib: “Ölkələrimiz arasında münasibətlər strateji əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, biz bir-birimizi strateji tərəfdaşlar adlandırırıq. Bu gün biz ikitərəfli münasibətlərin çox geniş gündəliyini nəzərdən keçirdik və gələcək qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirdik. Ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur”.

Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın inkişafının əsasında hər iki ölkə prezidentinin təşəbbüsləri dayanır, bununla bağlı təklif edilən proqramlar uğurla reallaşır. Məhz elə bunun nəticəsidir ki, hazırda Azərbaycanın mühüm tərəfdaşı olan Rusiya ilə əlaqələr yüksək səviyyədədir, siyasi, iqtisadi, humanitar, hərbi-texniki və s. sahələrdə əməkdaşlıq yeni inkişaf mərhələsindədir. Qarşılıqlı siyasi, sosial-iqtisadi münasibətlər iki ölkənin birgə səyi ilə mühüm tədbirlərin, önəmli layihələrin uğurla reallaşdırılmasına əlverişli imkan yaradır və yüksək göstəricilər əldə edilir. Bununla bağlı diqqəti bəzi məqamlara yönəltmək istərdik. Əvvəlcə onu deyək ki, iki dövlət arasında 2018-ci ilin sentyabrında imzalanan “Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə 2024-cü ilədək Fəaliyyət Planı”nda əks olunan 5 “Yol xəritəsi” iqtisadi əlaqələrimizin genişlənməsinin mühüm istiqamətlərini müəyyənləşdirir. Həmin “Yol xəritələri” ticarət, nəqliyyat, ölkəmizin ərazisində birgə istehsal sahələrinin qurulması, büdcə-vergi sektorunun rəqəmsallaşdırılması üzrə qarşılıqlı fəaliyyəti, habelə humanitar sahədə əməkdaşlığı nəzərdə tutur. Yeri gəlmişkən, iki ölkə arasındakı “Sərbəst ticarət haqqında saziş” ticarət əməkdaşlığının daha da genişləndirilməsi üçün əlverişli imkanlar yaradır.

Ümumiyyətlə, son illərdə iki ölkə arasında birgə keçirilən görüşlər, fikir mübadilələri Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmlənməsi üçün mühüm önəm daşıyıb. Dövlətimizin başçısı bu məsələ ilə deyib: “Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinlə mənim çoxsaylı görüşlərim bizim dostluq, mehriban qonşuluq əlaqələrimizin daha da möhkəmlənməsində çox mühüm rol oynayıb. Münasibətlərimizin çox geniş gündəliyi daim diqqətdə saxlanılıb və əlaqələrimizin bütün istiqamətlər üzrə durmadan inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilib”.

Xatırladaq ki, son vaxtlar ölkələrimiz arasında ikitərəfli münasibətlər daha səmərəli və keyfiyyətli olub. Bunun nəticəsində Rusiya ilə Azərbaycanın dostluq və tərəfdaşlıq münasibətləri möhkəmlənib, qarşılıqlı əlaqələr geniş istiqamətlər üzrə inkişaf edib. İqtisadi əlaqələr yüksək səviyyədə genişlənib.

Bütün bunlar onu göstərir ki, hazırda Azərbaycan-Rusiya münasibətləri dinamik yüksəliş mərhələsindədir. İki dövlət arasında qarşılıqlı anlaşma mühiti hökm sürür. Prezident İlham Əliyevin Rusiyaya etdiyi rəsmi səfər də bunu təsdiqləyir.

Qeyd edək ki, dövlətimizin başçısının Rusiyaya rəsmi səfərə dəvət olunması, Prezident Vladimir Putin tərəfindən çox böyük ehtiramla qarşılanması da iki ölkə arasındakı münasibətlərin, ilk növbədə, dərin siyasi məzmununun və Azərbaycanın dövlət başçısının yüksək nüfuzunun parlaq ifadəsidir.

Prezident İlham Əliyevin bu səfəri zamanı Azərbaycan və Rusiya arasında səmimi, konstruktiv və ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə yönələn müzakirələr aparıldı. Bu, eyni zamanda, iki dövlət başçısı arasındakı şəxsi münasibətlərin, Rusiya–Azərbaycan əlaqələrinin və geosiyasi reallıqlara yanaşmada ortaq mövqeyin xarakterindən irəli gəlirdi. Həmçinin dövlət başçılarının görüşləri, mətbuata verilən bəyanatlar Azərbaycanla-Rusiya arasında qarşılıqlı siyasi, sosial-iqtisadi və digər sahələr üzrə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün güclü siyasi iradənin mövcudluğundan xəbər verirdi.

Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfərinin əsas hadisəsi təbii ki, “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə”nin imzalanması oldu. Qeyd edək ki, Prezident İlham Əliyev hələ Yeni il münasibətilə xalqa müraciətində bu ölkə ilə əlaqələrin keyfiyyətcə yeni səviyyəyə yüksələcəyi barədə, belə demək mümkünsə, anons vermişdi. Artıq həmin anons dövlətimizin başçısının Rusiyaya indiki rəsmi səfəri zamanı gerçəkləşdi, bu, əlaqələrin keyfiyyətcə mühüm bir səviyyəyə yüksəlməsi ilə nəticələndi və beləliklə, iki ölkənin münasibətlərindəki inkişafın yeni mərhələsinə fevralın 22-də dövlət başçıları tərəfindən imzalanan “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə” ilə başlanıldı.

Tərəflər arasında bərabərhüquqlu münasibətləri yüksək səviyyədə tənzimləyən bu Bəyannamə Azərbaycanla Rusiya üzərinə önəmli öhdəliklər qoyur. Başqa sözlə, 43 bənddən ibarət olan sənədin prioritet istiqaməti ondan ibarətdir ki, hər iki ölkə müttəfiqlik fəaliyyətini bir-birinin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, güc tətbiq etməmək, müttəfiqlik münasibətlərinə xələl gətirən hərəkətlərdən, eləcə də bir-birinə qarşı yönəlmiş hərəkətlərdən çəkinmək öhdəliyi götürür. Bəyannamədə hər iki ölkənin müstəqil xarici siyasət yürütməsi xüsusi olaraq diqqətə çatdırılır.

Adı çəkilən Bəyannamədə Qafqaz regionu və Xəzərdə sabitliyin və təhlükəsizliyin təmin edilməsində qarşılıqlı fəaliyyətin zəruriliyi qeyd edilir və bu xüsusda Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyada nəzərdə tutulan bütün fəaliyyət prinsiplərinin vacibliyi vurğulanır. Bununla yanaşı, beynəlxalq terrorçuluq, ekstremizm, separatçılıq, transmilli mütəşəkkil cinayətkarlıq və digər bu tipli təhdidlərin qarşısının alınması üçün səylərin birləşdirilməsi də qarşıya mühüm vəzifə kimi qoyulur.

Burada onu da xatırladaq ki, Rusiya və Azərbaycan regionda sabitlik və təhlükəsizliyinin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasına tərəfdaş olduğunu bəyan edir. Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün əsas kimi 2020-ci il 10 noyabr tarixli, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli bəyanatlarının müddəalarının həyata keçirilməsi üzrə səylərə bundan sonra da hər cür dəstək ifadə olunur.

Hər iki ölkə öz ərazilərində təşkilatların və şəxslərin digər tərəfin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısını qətiyyətli surətdə almaqla bağlı da Bəyannamədə mühüm bənd mövcuddur. Bu isə o deməkdir ki, bundan sonra Azərbaycan və Rusiya silahlı qüvvələri arasında əməliyyat və döyüş hazırlığı üzrə birgə tədbirlərin keçirilməsi də daxil olmaqla qarşılıqlı əməkdaşlıq dərinləşdiriləcək, eləcə də ikitərəfli hərbi əməkdaşlığın digər istiqamətləri inkişaf etdiriləcək.

Təhlükəsizliyin təmin edilməsi, sülhün və sabitliyin qorunub-saxlanması məqsədilə Rusiya Federasiyası və Azərbaycan Respublikası bir-birinə BMT Nizamnaməsi, ayrı-ayrı beynəlxalq müqavilələr əsasında və tərəflərdən hər birinin beynəlxalq-hüquqi öhdəliklərini nəzərə almaqla hərbi yardım göstərilməsi imkanını nəzərdən keçirməyə hazır olduqlarını bəyan edib. Üçüncü dövlətlər vasitəsilə həyata keçirilən və bir-birinə qarşı yönəlmiş hər hansı hərəkətlərdən çəkinəcəklərini beynəlxalq terrorçuluq, ekstremizm və separatçılıq təhdidlərinə, transmilli mütəşəkkil cinayətkarlığa qarşı da birgə hərəkət etmək kimi vacib müddəalar bu sənədə öz əksini tapıb.

Qeyd edək ki, Bəyannamədə mühüm önəm daşıyam məqamlardan biri də odur ki, iki ölkə arasında qarşılıqlı faydalı ticarət-iqtisadi, sərmayə və elmi-texniki əməkdaşlığın dərinləşdirilməsi və məsələlərin keyfiyyətcə yeni səviyyəyə qaldırılması xüsusi öhdəlik kimi diqqət çəkir. Bu baxımdan hər iki tərəf bir-birinin maraqlarına zərər vuran istənilən iqtisadi fəaliyyətin həyata keçirilməsindən çəkinmək öhdəliyini də üzərinə götürür.

Yeri gəlmişkən, “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə”də iki ölkə arasında ticari-iqtisadi əlaqələrin perspektivləri ilə bağlı da bir sıra mühüm bəndlər yer alıb. Məsələn, Bəyannamənin 23-cü bəndində deyilir: “Tərəflər davamlı inkişafa və hər iki dövlətin iqtisadi potensialından səmərəli istifadəyə böyük əhəmiyyət verərək iqtisadi islahatların həyata keçirilməsində qarşılıqlı fəaliyyət göstərəcək, iki ölkə arasında iqtisadi qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi məqsədilə 1 sentyabr 2018-ci ildə imzalanmış Rusiya–Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planının realizə edilməsinə, ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə uyğun olaraq əmtəə və xidmətlərin sərbəst hərəkəti üçün əlverişli şəraitin yaradılmasına, eləcə də regional iqtisadi əməkdaşlığın irəlilədilməsinə yardım göstərəcəklər”.

Bəyannamədə daha sonra Rusiya Federasiyası və Azərbaycan Respublikasının qarşılıqlı faydalı ticarət-iqtisadi, sərmayə və elmi-texniki əməkdaşlığı dərinləşdirmək, istehsal və elmi əməkdaşlığı, hər növ mülkiyyət formalı təsərrüfat subyektləri arasında birbaşa əlaqələri keyfiyyətcə yeni səviyyəyə qaldırmaq niyyətində olduqları qeyd edilib. Bununla yanaşı, milli qanunvericiliklər çərçivəsində metallurgiya, neft-qaz və ağır maşınqayırma, aviasiya, avtomobil, kimya, əczaçılıq və yüngül sənaye, kənd təsərrüfatı, yol-tikinti və qida maşınqayırması müəssisələri arasında iqtisadi əlaqələrin daha da inkişaf etdiriləcəyinə əminliyi ifadə olunub.

Qeyd edək ki, adı çəkilən Bəyannamədə hər iki ölkənin milli qanunvericiliyi və kredit-pul siyasəti çərçivəsində kredit-bank təşkilatlarının fəaliyyətinə, maliyyə institutlarının əməkdaşlığının inkişaf etdirilməsinə, maliyyə-sənaye qrupları, istehsal və digər təşkilati-təsərrüfat strukturları da daxil olmaqla birgə müəssisələrin yaradılması da nəzərdə tutulur. Azərbaycanla Rusiyanın qarşılıqlı hesablaşmalarda milli valyutalardan istifadəyə, bank kartlarına birgə xidmət daxil olmaqla ödəniş sistemlərinin qarşılıqlı uyğunluğuna, eləcə də hər iki ölkənin bankları arasında birbaşa müxbir münasibətlərin inkişaf etdirilməsinin reallaşacağı da planlaşdırılır.

Azərbaycan Respublikası və Rusiya Federasiyası tərəfindən Bəyannamədə intellektual nəqliyyat sistemləri texnologiyalarından birgə istifadə etməklə tranzit–nəqliyyat qarşılıqlı fəaliyyətinin potensialının ardıcıl inkişafının, “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizinin davamlı və tammiqyaslı fəaliyyəti üçün texniki-iqtisadi şəraitin təmin edilməsi də qarşıya mühüm vəzifə kimi qoyulub.

Prezident İlham Əliyev bu Bəyannamə ilə Azərbaycan və Rusiya arasında münasibətlərin keyfiyyətcə yeni müttəfiqlik səviyyəsinə yüksəldiyini bildirib: “Ölkələrimiz arasında çox geniş müqavilə – hüquq bazası vardır, 245 sənəd imzalanıb. Lakin onların arasında bu gün imzalanmış bəyannamə xüsusi əhəmiyyət kəsb edir. Bu bəyannamə bizim münasibətlərimizi müttəfiqlik səviyyəsinə çıxarır. Bu, həm böyük imtiyaz, həm də böyük məsuliyyətdir. Biz bu günə təkidlə, uzun müddət əməkdaşlıq potensialını artırmaqla, səmimiyyətə, mehriban qonşuluğa, praqmatizmə, qarşılıqlı maraqların nəzərə alınmasına əsaslanan münasibətlər qurmaqla gəlib çatmışıq”.

Göründüyü kimi, Moskvada imzalanan “Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə” mühüm tarixi əhəmiyyətə malik olmaqla iki ölkənin xalqları arasında dostluq, mehriban qonşuluq və tarixi ənənələrə, həmçinin dərin mədəni, humanitar əlaqələrə əsaslanır.

**Vaqif BAYRAMOV,**
**“Xalq qəzeti”**